# Milli Ordunun tarixi təməlləri



*1990-cı ilin əvvəllərində ağır vəziyyətə düçar olmuş Azərbaycan xalqının yanında olmağa qərar verən Ulu Öndər Moskvadan Vətənə qayıtdı. Ovaxtkı rəhbərlik onun paytaxtda yaşamasına imkan vermədiyi üçün doğma yurdu Naxçıvana getdi. Çox keçmədən muxtar respublikanın Ali Sovetinə və Azərbaycan SSR Ali Sovetinə deputat seçildi. Onun təşəbbüsü ilə üçrəngli bayrağımız 70 illik imperiya dövründə ilk dəfə Naxçıvanda ucaldıldı. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyev muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu.*

1991-ci ildə Milli Ordunun yaradılması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul olunsa da, müstəqilliyin ilk illərində ordu quruculuğunda ciddi qüsurlara yol verildi, Azərbaycan Ordusunun yaranması sadəcə kağız üzərində qaldı. Ölkədəki ağır vəziyyət və iqtidarda olanların yaratdıqları xaos, özbaşınalıq müstəqilliyimizi təhlükə qarşısında qoydu. Azərbaycan Ordusunun formalaşdırılması sahəsində Heydər Əliyevin tarixi fəaliyyətinin ilk addımları Naxçıvanda atıldı. Ulu Öndər parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə qısa müddətdə həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də muxtar respublika ərazisində milli ordunun hərbi hissələrinin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi. "...Gərək hər bir rəhbər adam belə hesab etsin ki, onun borcu xalqının, öz torpağının, rəhbərlik etdiyi vilayətin, respublikanın müqəddəsliyinin keşiyində durmaqdır. Deməli, özünü bir kənara qoymalısan, öz şəxsi arzularından əl çəkməlisən, özünü, ancaq bu işə sərf etməlisən". 3 sentyabr 1991-ci ildə həm deputatların, həm də minlərlə muxtar respublika sakininin tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Ulu Öndər Heydər Əliyev məhz bu müdrik fikrinin işığında muxtar respublikanın ozamankı ağır vəziyyətində - soyuq iş otağında, çıraq işığında xalq və dövlət üçün çalışmağın, bu yolda fədakarlıq göstərməyin real nümunəsini yaratmış, müstəqilliyimizin təməl daşları həmin dövrdə Naxçıvanda qoyulmuşdur. Ümumiyyətlə, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir.

Türk dünyasının böyük oğlu Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonralar dahi şəxsiyyət bu barədə demişdir: "Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhvali-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yaqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq, eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm". Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanılması təmin olunmuşdur. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və Ulu Öndərə sonsuz inamı nəticəsində muxtar respublikada ilk milli ordu birləşmələri yaradılmış, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırılmış, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası məhz Naxçıvanda qoyulmuşdur.

**18 avqust 1992-ci ildə Ulu Öndər Rusiyanın Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyasının əmlakının tamamilə Milli Ordumuzun briqadasına verilməsi haqqında aktın imzalanması mərasimində iştirak etmişdir**

Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin yaradılması ilə müstəqil Azərbaycan Respublikasının məhz Naxçıvanda ilk mütəşəkkil hərbi hissələrinin təməli qoyuldu. Müdafiə Komitəsi tərəfindən 1992-ci il sentyabrın 15-də 5-ci ordu korpusunun əsası qoyulub. Bu məqamda Ali Məclisin tarixi əhəmiyyətli bir qərarını da yada salmaq yerinə düşər. Həmin qərar Ali Məclisin Sədri Heydər Əliyevin uzaqgörən siyasətinin və məqsədyönlü fəaliyyətinin parlaq nəticəsi idi. "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkililə əlaqədar bəzi məsələlər haqqında" qərar qəbul edən Ali Məclisin Rəyasət Heyətinin 1992-ci il 25 iyul tarixli iclasında Heydər Əliyev böyük fəxrlə məlumat vermişdi ki, aparılan danışıqlar nəticəsində Rusiyanın Müdafiə Nazirliyi muxtar respublikada yerləşən 75-ci motoatıcı diviziyanın ləğv olunması və onun bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına keçirilməsi haqqında yazılı razılıq verib.



Avqustun 18-də keçmiş sovet ordusunun 75-ci motoatıcı diviziyası komandanlığının, zabit heyətinin və son hərbi dəstələrinin təntənəli yolasalma mərasimində diviziyaya məxsus olan əmlakın, hərbi texnikanın, silah və sursatın Azərbaycan Milli Ordusunun Naxçıvandakı 5-ci Əlahiddə Motoatıcı Briqadasına təhvil verilməsi haqqında sənədlərin imzalanmasından sonra qərargahın həyətində qürurla Azərbaycan əsgərini salamlayan Heydər Əliyev demişdi: "Azərbaycan Milli Ordusunun zabit və əsgərləri! Bu gün bizim üçün son dərəcə əhəmiyyətli bir gündür. Bu gün öz müstəqilliyini əldə etmiş Azərbaycan dövləti artıq öz milli ordusunu yaradır. Bununla əlaqədar olaraq Azərbaycan dövləti öz ərazisindən başqa ordu hissələrinin çıxarılmasını təmin edir... Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da bu yolda müvafiq addımlar atır, lazımi tədbirlər görür və torpağımızın toxunulmazlığını təmin etmək üçün Naxçıvan ərazisində öz milli silahlı qüvvələrinin yaradılması ilə məşğul olur. Sovetlər İttifaqı dağıldıqdan sonra keçmiş sovet ordusunun hissələri milli müstəqillik əldə etmiş bir çox dövlətlərin, o cümlədən Azərbaycanın ərazisində hələ də qalmaqda davam edir". Sovet hərbi hissələrindən biri olan 75-ci motoatıcı diviziya 1946-cı ildə Naxçıvana gələrək tam 46 il burada qalmışdı. Demək olar ki, təxminən 165 il əvvəl, çağırılmayan qonaq kimi Naxçıvan ərazisində məskunlaşmış rus ordusunun sonuncu əsgərləri şəxsən Ulu Öndər Heydər Əliyevin siyasəti və fədakarlığı sayəsində muxtar respublikadan yola salınmışdı. Aparılan danışıqların nəticəsində 18 avqust 1992-ci ildə rus əsgərləri Naxçıvanı tərk etdi. Naxçıvanı tərk edən ordunun hərbi sursat və əmlakların milliləşdirilməsi, milli ordu hissələrinin yaradılması Naxçıvanın ermənilərdən qorunmasının qarantına çevrildi.

1992-ci il avqust ayının 22-də Naxçıvandakı 41-ci sərhəd dəstəsi Azərbaycanın tabeliyinə keçmiş və sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdı. Rusiya Sərhəd Qoşunları Baş Komandanlığı və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin rəhbərliyi ilə aparılan danışıqların nəticəsi olaraq 1992-ci il sentyabrın 29-da isə 41-ci Sərhəd Dəstəsi ləğv olunub, onun bütün hərbi və təsərrüfat əmlakı Naxçıvanda yeni yaradılmış birinci Sərhəd Dəstəsinin sərəncamına verilib, 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli Sərhəd Qoşunları tərəfindən mühafizəyə qəbul edilib. Ümummilli lider Heydər Əliyev bu barədə deyib: "Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illər boyu rus qoşunları tərəfindən qorunub. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci Sərhəd Qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının birinci dəstəsi yaradıldı... Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir".

Həmin il sentyabrın 19-da keçirilən iclasda hərb tariximizə daha bir töhfə verən mühüm əhəmiyyətli qərar qəbul olundu. Ulu Öndərin imzaladığı "Naxçıvan Muxtar Respublikasının mühafizəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" qərara əsasən sentyabr ayının 29-da sonuncu rus sərhədçiləri Naxçıvan MR sərhədlərini tərk etdilər. Onların bütün hərbi və təsərrüfat əmlakı Azərbaycan Respublikasının Naxçıvandakı 1-ci Sərhəd Dəstəsinə təhvil verildi, həmin gün bütün sərhəd məntəqələrində üçrəngli bayrağımızın qaldırılmasını soydaşlarımız böyük sevinclə qarşıladılar. Həmin vaxt Naxçıvandakı sərhəd dəstəsinin əmlakının, silah və sursatının tamamilə təhvil verilməsi işi də ölkəmizin milli maraqlarına uyğun şəkildə həll olundu. Oktyabrın 9-da Naxçıvan şəhərində keçirilən ilk milli hərbi paradda Ali Məclisin Sədri Heydər Əliyevin nitqi bir il ərzində muxtar respublikada hərbi quruculuq sahəsində görülmüş işlər barəsində hesabat xarakteri daşıyırdı: "Biz indiyədək Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər oğullarımıza, bütün könüllü dəstələrə öz minnətdarlığımızı bildiririk, onların gördükləri işləri layiqincə qiymətləndiririk. Eyni zamanda onu da bəyan etmək istəyirik ki, artıq Naxçıvanda nizamlı milli Azərbaycan Ordusunun hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir. Eləcə də Naxçıvanın sərhədlərini mühafizə etmək üçün öz Milli Sərhəd Dəstəmiz vardır. Ona görə də bütün könüllü dəstələrə minnətdarlığımızı bildirməklə, onlara tövsiyə edirik ki, bundan sonra öz vətəndaşlıq vəzifələrilə məşğul olsunlar... Biz tam əminik ki, bu keçid dövründə, Ermənistanla gedən müharibə şəraitində yaradılmış Milli Ordumuzun əsgər və zabitləri, bölmə və hissə komandirləri öz döyüş məharətlərini durmadan yüksəldəcək, müasir hərbi elmə inadla yiyələnəcək, torpaqlarımızın etibarlı surətdə müdafiə olunmasını yüksək səviyyədə təmin edəcəklər".

Xatırladaq ki, 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumu - 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. Daha sonra, 1995-ci ildə onun bazasında 705-ci motoatıcı diviziya, 1998-ci ildə isə 5-ci Ordu Korpusu yaradılıb. Ölkə Prezidentinin 2013-cü il 18 dekabr tarixli fərmanına əsasən Naxçıvanda 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu formalaşdırılıb.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri misilsiz və əvəzsizdir. Mənalı həyatını doğma xalqına həsr edən Ümummilli Lider bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət edib, ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə ölkəmizi inamla irəliyə aparıb. Ulu Öndərin Naxçıvanda Ali Məclisin Sədri işlədiyi dövrdə siyasi səriştə ilə hazırlanan, həyata keçirilən qanun layihələri dövlətin əsaslarını möhkəmləndirdi, dövlətçiliyin baza prinsiplərini formalaşdırdı. Zamanla dövlət strukturlarının yaradılması və fəaliyyətinin təkmilləşdirilməsi, idarəçilik orqanlarının təşkili və onalara nəzarət mexanizminin hazırlanması və həyata keçirilməsi dahi şəxsiyyətin siyasi strategiyasının təməl prinsipləri kimi müasir dövlətçilik tariximizin yeni mərhələsini təşkil edir.

**Mustafa KAMAL,**
**"Respublika".**